Azadlıq Radiosu

DÜNYA

# Neft 2 faiz bahalaşdı – Bu il 80 dollardan aşağı düşməyə bilər

indicə




Neft buruğu

Sentyabrın 1-də neftin qiyməti təxminən 2 faiz yüksəlib. Buna Yaxın Şərqdə ABŞ ilə İran arasında döyüşlərin yenidən başlaması, neft hasil edən regiondan tədarükün pozula biləcəyi sarıdan narahatlıq səbəb olub.

"Brent" markalı neftin fyuçersləri 1.72 dollar və ya 1.9 faiz bahalaşaraq bir barel üçün 92.21 dollara çatıb. ABŞ-nin "West Texas Intermediate" (WTI) markalı neftinin qiyməti isə 2.12 dollar və ya 2.47 faiz artaraq 87.88 dollar olub.

Bir gün əvvəl ABŞ prezidenti Donald Tramp İranı yeni zərbələrlə hədələyib. İki ölkə iyulun sonlarından bəri ilk dəfə birbaşa qarşılıqlı hücumlar gerçəkləşdirib.

PVM şirkətinin analitiki **Con Evans**ın fikrincə, bu zərbələr münaqişənin "əbədi müharibə" olmasa belə, uzun müddət davam edəcəyi ilə bağlı fikirləri gücləndirir.

İran prezidenti **Məsud Pezeşkian** bu gün deyib ki, ABŞ iyunda imzalanmış anlaşma memorandumu üzrə öhdəliklərinə qayıdarsa, ölkəsi də dərhal qarşılıqlı addım atacaq.

Qətər və Omanın Hörmüz boğazının yenidən açılması ilə bağlı səyləri indiyədək nəticə verməyib.

Fevralın sonunda ABŞ və İsrail İranla müharibəyə başlamazdan əvvəl dünya üzrə neft tədarükünün beşdə biri bu boğazdan keçirdi.

Avqustun 31-də Hörmüzdən keçən və Səudiyyə Ərəbistanı nefti daşıyan iki supertanker bir neçə dəqiqə fasilə ilə naməlum mərmilərlə vurulub.

Həmin gün Hörmüz boğazından beş yük gəmisinin keçdiyi müşahidə edilib. Son 10 günün orta göstərici isə 14 gəmi idi.

"Reuters"in avqustda keçirdiyi sorğuya qatılan təhlilçilər 2026-cı ildə neftin bir barelinin qiymətinin 80 dollardan aşağı düşməyəcəyini gözləyirlər.

## Buna da bax:

Tramp: Hörmüz boğazından hər gecə 30 gəmi keçir

İrana yeni zərbələr 'Hörmüzə görə xəbərdarlıqdır'

İran müharibəsinin 6 ayı, bundan sonrası 4 məsələdən asılıdır

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur